AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2
Səhifə: 73-80
https://doi.org/10.59849/2663-4406.2024.2.73

ISSN: 2663-4406
E-ISSN: 2709-2699

# Zəlimxan Yaqub poeziyasında ənənə və novatorluğun vəhdəti

**Aygül Çobanova**
Dissertant
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: acobanova1974@gmail.com

**Annotasiya.** Məqalədə Zəlimxan Yaqub poeziyasında ənənə və novatorluq problemi araşdırılır. Qeyd olunur ki, poeziyada ənənə və novatorluq daim bir-birini izləmiş, hər bir dövrün, mərhələnin poetik təkamül yolu yeni poetik düşüncəni özündə əks etdirmişdir. XX əsr poeziyasında da bu iki qoşa tendensiya arasıkəsilməz proses kimi bu poetik ənənəni yaşatmışdır. Dialektik şəkildə davam edən bu tendensiya ötən əsrin 60-70-ci illərində, yəni Z.Yaqubun poetik yaradıcılığa başladığı dövrdə aktuallaşmışdı. Z.Yaqubun ilk dövr yaradıcılığında ənənə fərdi istedadın gücü ilə xalq şeiri yaradıcılığının daha çox zahiri əlamətlərini özündə ehtiva edir. Şair bu dövrdə daha çox xalq şeiri üslubuna meyil edir, bədii təsvir və ifadə vasitələrində, qafiyələrində bu ənənəni qorumağa çalışırdı. Yaradıcılığının sonrakı mərhələsində Yunus Əmrə və Mövlana Cəlaləddin Rumi və təsəvvüf düşüncəsinə meyil edir; bu dövrdə onun poetik təfəkkürü ilə yanaşı, dili də zənginləşir, xalqın mənəvi varlığının tərənnümçüsünə çevrilərək özü də bir poetik ənənə yaratmış olur. Z.Yaqubun istifadə etdiyi poetik formaların əksəriyyəti xalq şeiri üslubunda yazılmış şeirlər, heca vəznli qoşmalar, gəraylılar, təcnislərdən ibarət olurdu. Z.Yaqub mövcud ənənənin əsiri olmaqdan çıxır, ancaq ona lazım olanı götürür, özünün poetik istedadı ilə yeni poetik mətnlər yaradır. O, bütün yaradıcılığı boyu əvvəldə qeyd etdiyimiz hər üç ənənə qolundan (folklor, klassik poeziya, çağdaş poeziya) sənətkarlıqla istifadə etmiş, lakin onların heç birinin təsiri altında olmamışdır.
**Açar sözlər:** Z.Yaqub, poetik yaradıcılıq, ənənə, novatorluq, vəhdət

**Məqalə tarixçəsi:** göndərilib – 16.10.2024; qəbul edilib – 29.10.2024

# The unity of tradition and innovation in Zalimkhan Yagub's poetry

**Aygul Chobanova**
Dissertation Student
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: acobanova1974@gmail.com

**Abstract.** In the article is studied the issue of tradition and innovation in the poetry of Zalimkhan Yagub. It is noted that the tradition and innovation in the poetry follow each other and the path of poetic evolution of each period and stage reflects a new poetic thought. These two tendencies kept alive this poetic tradition as an inseparable process in 20th century poetry. This tendency, which continued dialectically, became actual during 60-70s of last century, namely at the time when Z.Yagub started his poetic creativity. The tradition of Zalimkhan Yagub's creativity of the first period includes the more external symptoms of folk poetic creation by the power of individual

talent. The poet was more interested in the folk poetry style during this period, tried to preserve this tradition in the means of artistic description and expression, and rhymes. In the next stage of his creativity he tended to Yunus Emre, Mowlana Jelaleddin Rumi and Sufi thought; his poetic thought and language were enriched and he himself created a poetic tradition becoming the praiser of the spiritual existence of the people. Most of the poetic forms Z.Yagub used are poems written in the style of folk poetry, goshma with syllable weight, gerayli and tejnis. Z.Yagub was not a prisoner of existing tradition, he used what he needed and created new poetic texts by his poetic talent. Z.Yagub used all three branches of tradition (folklore, classical poetry, contemporary poetry) skillfully during his creativity.

**Keywords:** Z.Yagub, poetic creativity, tradition, innovation, unity

**Article history:** received – 16. 10.2024; accepted – 29.10.2024

## Giriş / *Introduction*

Min ildən çox inkişaf yolu keçmiş Azərbaycan poeziyası zəngin poetik təcrübə toplayaraq daim özünü yeniləmiş, ideya-məzmun, sənətkarlıq, forma, obrazlar sistemi, bədii təsvir və ifadə vasitələri baxımından zənginləşmişdir. Poeziyada ənənə və novatorluq daim bir-birini izləmiş, hər bir dövrün, mərhələnin poetik təkamül yolu yeni poetik düşüncəni özündə əks etdirmişdir.

## Əsas hissə / *Main Part*

XX əsr poeziyasında da bu iki qoşa tendensiya arasıkəsilməz proses kimi bu poetik ənənəni yaşatmışdır. Dialektik şəkildə davam edən bu tendensiya ötən əsrin 60-70-ci illərində, yəni Zəlimxan Yaqubun poetik yaradıcılığa başladığı dövrdə aktuallaşmışdı. O zaman nəzəri ədəbiyyatda ənənə bu şəkildə təsbit edilirdi: "Köhnə ədəbi hadisə ilə yeni ədəbi hadisə arasında ardıcıl varislik əlaqəsi; bir və ya bir neçə yazıçının yaradıcılığının sonrakı yazıçılar tərəfindən öyrənilən və inkişaf etdirilən ideya-sənətkarlıq xüsusiyyətləri" [3, s.88]. Əlbəttə, bu qiymət bir lüğətin verdiyi imkanlar daxilində ənənənin qısa, lakonik şəklidir. Əslində isə ənənə problemi ədəbiyyatın, bədii-estetik düşüncənin ən mühüm problemidir və nəsillər dəyişdikcə bu problem yeniləşdikcə ona münasibətdə fikirlər də dəyişir, müəyyən əlavələr olunur. Tomas Eliot bu dərinliyi və müxtəlifliyi özünün "Ənənə və fərdi istedad" məqaləsində belə ifadə edir: "Biz ənənədən danışanda bəzən təəssüf hissilə onun olmadığını göstərir və bu sözləri işlədirik: "İngilis tənqidində nadir halda ənənədən söhbət açılır". Biz "müəyyən ənənəyə", yaxud "digər ənənəyə" əsaslana bilmədiyimizdən, ən yaxşı halda uyğun gələni işlədirik. Məsələn, deyirik ki, bu poeziya nümunəsi "ənənəvidir", ya da "çox ənənəvidir". Mətbuatda buna nadir halda, ya da tənqid halda deyimlərdə rast gəlirik" [2, s.12].

Şair və tənqidçi T.Eliot sonuncu cümlədə sanki Azərbaycan tənqidi fikrinin ənənəyə münasibətini nəzərdə tutmuşdur. Doğrudan da, biz ənənəyə çox zaman bu prizmadan baxmışıq. Hətta ötən əsrin 20-30-cu illərində ənənəyə arxaik bir düşüncə elementi kimi baxanlar olmuş və ondan imtinalar da səslənmişdir. 60-70-ci illər ədəbi prosesində də ənənəyə münasibətdə ziddiyyətli fikirlər səsləndirilmişdir. Lakin əsas olan bədii estetik idealın ənənə və novator tandemini zaman-zaman inkişaf etdirməsi, yeni bir mərhələyə çatdırmasıdır. Filologiya elmləri doktoru Arif Abdullazadə ənənə dedikdə ilk növbədə sənətdə tamamilə yeni bəşəri hiss və duyğuların, kəşf və fikirlərin son dərəcə bədii və özünəməxsus şəkildə ifadəsini nəzərdə tutaraq yazır: "...illərin və əsrlərin imtahanından, sınağından keçərək həmişə öz təravətini qoruyub saxlayan, neçə-neçə sənətkarlar və dövrlər üçün örnək, istifadə, təsir və tərbiyə məktəbi olmağa qadir olan bir ədəbi irs təsəvvür edirik" [1, s.95]. Bu mənada, daim inkişaf edən, dəyişən ənənənin özü də müxtəlif qollara ayrılır:

1. Folklor ənənəsi
2. Klassik poetik ənənə
3. Çağdaş poetik ənənə

Zəlimxan Yaqub bu poetik ənənələrin qovuşuğunda ədəbiyyata gəlmiş və milli poeziyanın çoxəsrlik inkişaf yolunun müxtəlif xüsusiyyətlərini özündə birləşdirən ənənəni yaşatmağa çalışmışdır. Dünyaya sözün gözü ilə baxan şair yaradıcılığının qaynağı kimi xalq düşüncəsi və onun ayrı-ayrı nümayəndələrinin yaradıcılığından bəhrələndiyini belə ifadə edir: "Ayağım yer, əlim qələm, dilim söz tutandan bu günə kimi üzümü dədə-babalara tutmuşam. Dədə Qorquddan Dədə Ələsgərə, Dədə Şəmşirə, Dədə Əmraha qədər, Füzulidən Sabirə, Səməd Vurğundan Şəhriyara qədər adını çəkdiyim və çəkmədiyim ulularımız gözümdə işıq, qəlbimdə təpər olub, yaddaşıma yazılıb, könlümə köçüb, iliyimə, qanıma işləyib" [12, s.6]. Şair üçün ənənə dəyişməz və donmuş deyil, estetik idealı, bədii düşüncə orbitini zənginləşdirən, yeniləyən, gələcək nəsillərə körpü olan bir anlayışdır. Hər zaman yaranmayan bu ənənəni inkişaf etdirmək, onu gələcək nəsillərə çatdırmağın özü məzmunca yeni məna daşıyır. Z.Yaqub da məhz bu ənənə üzərində poeziyaya gəlmiş, özünün yazdığı şeirlərlə ədəbi ənənə kontekstinə yeni çalarlar əlavə etmişdir. Tənqidçi Qulu Xəlilov onun ilk dövr yaradıcılığındakı bu keyfiyyəti doğru qeyd edirdi: "Şeirlərinin bir çoxu el ədəbiyyatının, aşıq yaradıcılığının qüvvətli təsiri altında ətə-qana dolub. Bu isə əsərlərinə bir təbiilik, koloritlik aşılayır" [6, s.3]. Tənqidçinin bu sözlərinə axıcılığı, səmimiyyəti, xalq deyimini, ifadə tərzi və düşüncəsini də əlavə etmək mümkündür. İsa Muğanna isə bu fikirdədir ki: "Sənin şeirində uca ənənəvilik mayası var: özünün yazdığın kimi, Yunus İmrənin, Füzulinin süzgəcindən keçib, Alıdan, Ələsgərdən axarlanıb, zəmanəmizin ab-havasında yetişib" [9, s.39]. Bu mənada, Z.Yaqub yaradıcılığı zəngin mənbə hesab oluna bilər. Ancaq burada da bir məsələni diqqətdə saxlamaq lazımdır; Z.Yaqubun yaradıcılığa başladığı ilk dövr poeziyası ilə sonrakı şeirləri arasında ənənə baxımından xeyli dərəcədə fərqlər vardır. Bir çox başqaları kimi, Z.Yaqub yaradıcılığının ilk dövründə də ənənə daha çox üç istiqamətdə yaşadılmışdır: a) xalq şeirinin məzmun və problematikasında; b) xalq şeirinin forma (qafiyə sistemi, bədii təsvir və ifadə vasitələri, dil sənətkarlığı və s.); c) hər hansı bir şairin yolunu davam etdirməkdə.

Zəlimxan Yaqubun ilk dövr yaradıcılığında ənənə fərdi istedadın gücü ilə xalq şeiri yaradıcılığının daha çox zahiri əlamətlərini özündə ehtiva edir. Şair bu dövrdə daha çox xalq şeiri üslubuna meyil edir, bədii təsvir və ifadə vasitələrində, qafiyələrində bu ənənəni qorumağa çalışırdı. Yaradıcılığının sonrakı mərhələsində Yunus Əmrə, Mövlana Cəlaləddin Rumi və təsəvvüf düşüncəsinə meyil edir; bu dövrdə onun poetik təfəkkürü ilə yanaşı, dili də zənginləşir, xalqın mənəvi varlığının tərənnümçüsünə çevrilərək özü də bir poetik ənənə yaratmış olur. Bu poetik məsafə ədəbi hadisələr və faktlarla zəngindir. Şairin poetikasının da məhz bu kontekstdə formalaşdığını qeyd etmək lazım gəlir. Əlbəttə, şairin daxil olduğu ədəbi mühitin də burada rolu az olmur. Aşıq Şəmşir, Hüseyn Arif, Osman Sarıvəlli, Məmməd Aslan, Məmməd Araz və başqaları ilə münasibətləri onun poetik yolunu da formalaşdırırdı. Osman Sarıvəlli, Aşıq Kamandar, Aşıq Şəmşir, Mikayıl Azaflı və başqaları ilə deyişmələri yaradıcılığının poetikasının gələcək özülünü təşkil etdi. İstifadə etdiyi poetik formaların da əksəriyyəti xalq şeiri üslubunda yazılmış şeirlər, heca vəznli qoşmalar, gəraylılar, təcnislərdən ibarət olurdu. Şeirin auditoriyası da yığıncaq və ya toy mərasimləri olurdu. Şair şeirin sonunda adını çəkir və özünü xalq adamı kimi göstərirdi:

*Mən deyirəm bu məclisdə könül şad olmaq üçün,*
*Nahaq yerə hiylə quran, hay salan əyləşməsin.*
*Hər sözə yüz məna verib arifləri yerində,*
*Şər danışıb toy evində vay salan əyləşməsin.* [13, s.171]

Şairin burada istifadə etdiyi "mən deyirəm", "məclis", "nahaq yerə", "hiylə quran", "arif", "üz ağardan" "nanəcibə yer verməzəm" və s. onlarla söz və ifadələr xalq şeirinin kanonlarından irəli gəlir. Şair üçüncü və sonuncu bənddə "Elim qədim Borçalıdır, Zəlimxan adım mənim // Doğru sözdü, sədaqətdi qolum-qanadım mənim. // Mehriban atalar olsun fəxri ustadım mənim, // Haramlıqla halal əldən pay salan əyləşməsin" [13, s.171] – deyə informativliyi davam etdirir və tamamlayır. Burada da şair "doğru söz", "haram", "halal", "sədaqət" kimi daşlaşmış söz və ifadələrdən istifadə edərək poetik ənənəni yaşadır.

Zəlimxan Yaqubun bu dövrdə yazdığı şeirlərin mövzusunda saz və xalqın milli varlığının tərənnümü başlıca yer tutur. Şairin bir çox şeirləri Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Aşıq Əmrah, Aşıq Ədalət, Aşıq Kamandar və başqalarına həsr olunub. Məsələ təkcə şeirlərin bu şairlərə, yaxud saza həsr edilməsində deyil, həm də bu şeirlərin məzmun və mündəricəsində, poetikasındadır. Həsən Həsənov "...Zəlimxan sazla sözü elə vəhdətləşdirdi ki, onun şeirində saz deyərkən söz, söz deyərkən saz canlanır insanın düşüncəsində" [4, s.87] – fikri onun poetikasının ana xətlərindən birini müəyyənləşdirir. Z.Yaqubun xalq aşıqlarına həsr etdiyi şeirlərdə bu ənənədən gələn poetik ifadə formalarından, söz və yaradıcılıq üslubundan istifadə etməsindədir. "Sənə" şeiri Aşıq Qurbaninin "Yollar qubarlanar, toz dəyər sənə" misrasının yaratdığı assosiasiyadan yaranmış və yeni bir poetik nümunəyə çevrilmişdir. Şeirdə gözələ ilahi bir qüvvə kimi baxılır və özünü qorumasını istəyir. Aşıq Qurbaninin "toz dəyə bilər sənə" ifadəsi isə "göz", "söz", "tez" və "toz" şəklində işlədilir:

*Ay gözəl, nə gözəlsən,*
*Göz dəyə bilər sənə.*
*Müxənnətdən, nadandan*
*Söz dəyə bilər sənə.* [13, s.7]

Şeirin üçüncü və sonuncu bəndində şair Aşıq Qurbaninin işlətdiyi "toz dəyə bilər sənə" ifadəsini olduğu kimi işlədir. Lakin burada kontekst başqadır; lirik qəhrəman "Nəmli gözdən öpülməz, // Sınıq könül yapılmaz. // Yollara su səpilməz, // Toz dəyə bilər sənə" [13, s.7], – deyərkən şairin "yollar qubarlanar" ifadəsinə qarşı "yollara su səpilməz" ifadəsini işlədir. Qurbanidə yolların qubarlanması toza səbəb olduğu kimi, Z.Yaqubda da yollara su səpilməsi onun tozlanmasına nədən olur. Z.Yaqub Qurbanidən gələn xalq şeiri ənənəsini mövzu, problematika, obrazlar, bədii təsvir və ifadə vasitələri baxımından bir qədər də zənginləşdirir. Şair xalq şeiri ənənəsini müqəddəs bir poetik yol hesab edir və bu yolu davam etdirir. Professor Rüstəm Kamal onun yaradıcılığındakı bu xüsusiyyəti belə ümumiləşdirir: "Z.Yaqub özünü mif qoruyucusu və mif yaradıcısı kimi aparır. O, etnik-mədəni miflərə inanır. Dədə Qorquda, Qurbaniyə, S.Vurğuna, Aşıq Ələsgərə... qutsal miflər kimi baxır" [11, s.3].

Zəlimxan Yaqubun bir çox şeirləri saz üstündə dinir, saza köklənir; poetik tutumu, milliliyi, etnik yaddaşı ilə bizi keçmişə aparır, milli-etnik ruhu yenidən dirildir. "Dünya", "Əmrah dayı", Aşıq Kamandara məktub", "Ədaləti dinlədim", "Aşıq Xanlara", "Bu sazdımı", "Sarıldığım sazdı mənim", "Tellər", "Bəlkə", Aşıq Əmrah", "Danış telli sazım", "Ay sədəfli saz", "Üç müqəddəs duyğu", "Havasındadı" və s. şeirlərində xalq şeirini yaşadan, onu musiqiyə uyğunlaşdıran sazın və sazla bağlı sənətkarların taleyini qələmə alır. Zəlimxan Yaqubun saz havaları üstündə yazdığı şeirlər özünün rəngarəngliyi və poetik imkanları ilə çox zəngindir. Saz havaları üstündə yazdığı "Kərəm", "Dilqəmi", "Ruhani", "Sarıtel", "Mansırı", "Qaraçı" və s. şeirlərini R.Rzanın 60-cı illərdə poeziyada etdiyi "Rənglər"in yeniliyi ilə bənzətmək olar. Əlbəttə yeniliklər fərqli və müxtəlifdir. Bu isə şairin ənənədə yaratdığı novatorluqdur. Z.Yaquba qədər heç kim sözlə musiqini, sazla sözü bu şəkildə və bu dərəcədə qovuşdura bilməyib. Bu havaların hər biri insan düşüncəsi və əhvalının bir məqamını ifadə edir. Burada adı çəkilən havalara uyğun bir bitkinlik, mərdlik, sınaqlarda dözüm, qeyrət və sərtlik var. "Kərəm" şeiri el arasında Yanıq Kərəmi adı ilə tanınan məşhur saz havasının sözlə ifadəsi kimi səslənir. "Dilqəmi" kökündə ifa olunan və poetik mətn baxımından qoşma formasında yazılan bu hava "Əsli və Kərəm" dastanının kulminasiya nöqtəsini çatdırır. Çox zaman isə bu havaya oynayanlar cəmiyyətin qınaq obyektinə çevrilir. Havanın və Z.Yaqubun "Kərəm" şeirinin mayasında da məhz bu aspekt dayanır. Kərəmin həyat fəlsəfəsi şairin şeirində belə ifadə edilir:

*Yandı, ocağına tapındı ellər,*
*Yanmasa, minlərdən biriydi Kərəm!*
*Belə alışmasa, kim nə biləydi,*
*Ölüymüş, yoxsa ki, diriymiş Kərəm!* [12, s.110]

Saz havasındakı qəm, kədər, qüssə eynilə Z.Yaqubun şeirində də ifadə olunur. Kərəm, hər şeydən əvvəl, bir aşiqdir, eşq yolunda onu gözləyən hər çətinliyə qatlaşır. Hətta ölümə belə razı olur, təki Əsliyə qovuşsun. Şərqdə Leyli ilə Məcnunun, Qərbdə Romeo və Cülyettanın məhəbbəti nadirsə, türk dünyasında da Əsli ilə Kərəmin məhəbbəti odur. Zəlimxan Yaqub Kərəmin sevgisini hər şeydən uca tutmaqla yanaşı, bu sevgini, məhəbbəti ən uca göylərə qaldırır, lakin onun faciəsini də verməyi unutmur. "Dilqəmi", "Ruhani", "Mansırı", "Sarıtel" və başqa şeirlərində də klassik və çağdaş aşıqların repertuarında daim çalınıb kamilləşən havaları, belə demək mümkünsə, nota köçürür. Bu cəhətdən şairi aşıq havalarının bilicisi və qeydiyyatçısı hesab etmək olar. Etnik milli mədəniyyətin, musiqinin söz üstündə poetik dərki onun şeirlərinin əsas mövzusudur. Şairin bu şeirlərində xalqın yaddaşı bədii ifadəsini tapır. "Dilqəmi" şeirində nakam eşqin dastanı kiçik bir poetik mətnə sığışdırılır. "Gözlər dolub, kipriklərə nəm düşüb,//Ortalığa həsrət çöküb, nəm çöküb,// Yaxşı yerdə əlimizə çəm düşüb,// Yəhya bəyin aləmini bir də çal,// Aşıq dostum, "Dilqəmini"ni bir də çal!" [13, s.110]. Bu elə bir nisgildir ki, ona "payız", "qış ağlar", "bu həsrətə dağ inildər, daş mələr". "Dilqəmi" şairin bədii düşüncəsində nakam eşqdir, bu eşqi çatdırmaq şairin vəzifəsidir. Bu, Dostu xanımla Yəhya bəyin nakam eşqini tərənnüm edən dastanın poetik versiyasıdır:

*Gözü nurdan, dizi heydən ayrılıb,*
*Bəxti yatıb, günü göydən ayrılıb,*
*Dostu xanım Yəhya bəydən ayrılıb,*
*Fələk kəsib kərəmini bir də çal!*
*Aşıq dostum, "Dilqəmi"ni bir də çal!"* [13, s.111]

Z.Yaqubun iki şeiri – "Mansırı" və "Mansırı" havası üstündə" şeirlərində də xalq şeirinin çağdaş bədii interpretasiyası təcəssüm olunur. Birinci şeirdə Mansırıda vurulan xalların nakam aşiqlərin eşqinin sorağından xəbər verməsi, "könüllər göynədən, yara sızladan" qəmli bir dastanı vərəqləyir. Bu dastanın da iki sevən və qovuşmayan aşiqləri var. Günlər gəlib keçir, zaman dəyişir və yenə də Məcnunun Leylisiz qalan günləri keçmir. İkinci şeirdə isə, şair "Mansırı" havasını bu qədər yanıqlı çalan Aşıq Hüseyn Saraclıya üz tutaraq yazır. Aşığın havanı bu qədər yanıqlı çalmasına təəccüblənən şair "Üzünə gülməyən zamanınmı var?" – deyə sual edir. Şairin aşığa sualları çoxdur; bu suallar əsrlər keçərək bu günümüzə gəlib çatan və "Mansırı"da daşlaşan eşqin, məhəbbətin doğurduğu suallardır:

*Zəlimxan, insanda o qüdrət hanı,*
*Yolundan qaytara gedən karvanı.*
*Torpağın qoynunda çürüyən canı,*
*Yoxsa sağaltmağa gümanınmı var?* [13, s.112]

Z.Yaqub yaradıcılığa başlayan zaman onu ənənəvi şair adlandıranlar çox idi. Lakin bu gündən baxdıqda şairin özünün yeni yolu, üslubu, özünəməxsusluğu olduğunu görməmək olmur. O, getdikcə mövcud formalarda yeni məzmun ifadə etməyi bacardı və fərdi üslubunu formalaşdırdı. Milli poeziya ənənələrinə möhkəm bağlı olan şair bu ədəbi ənənədən düzgün istifadə etməklə

çağdaş poeziyanı zənginləşdirmişdir. El, aşıq ədəbiyyatının ən üstün cəhətlərini poeziyasının xüsusiyyətlərinə çevirərək, yeni poetik mətnlər yaratmış, xalq məişəti, adət-ənələrinin poetik təsvirini vermişdir. Z.Yaqub yaradıcılığında ənənə kontekstini Həsən Həsənov son dərəcə dəqiqliklə ifadə edir: "Zəlimxanın yaradıcılığı zəngin ənənə üzərində qurulubsa da, o, saz üstündə deyilən şeir ənənəmizə yenilik gətirdi" [4, s.90]. O, xalq şeirinin forma xüsusiyyətlərindən istifadə etsə də, məzmun baxımından yeni, məhz ona məxsus olan modern poetik mətnlər yazmışdır. Bununla Z.Yaqub sübut etmişdir ki, poetik formadan istifadə arxaizm deyil və milli poetik forma çərçivəsində belə ən yaxşı əsərlər yazmaq mümkündür. Professor Qəzənfər Paşayev yazır: "...şairlərimiz arasında aşıq sənətindən, aşıq yaradıcılığından Xalq şairi Zəlimxan Yaqub qədər pay götürən, bu sənət aləmi ilə üzvi surətdə bağlı olan ikinci bir adlı-sanlı şairimiz yoxdur" [10, s.12]. Tənqidçi Yaşar Qarayev Z.Yaqubun milli kontekstdə keçdiyi poetik inkişaf yolunu, kamillik və tərəqqi yolunu ruha bənzədərək yazır: "Ruh kimi poeziya da bizim hələ gəlib çatmadığımız yerdə olur. Kamillik və tərəqqi poeziyaya çatmaq üçün getdiyimiz yol deməkdir. Təklikdə şair də, tam halda şeir də, bütövlükdə millət də həmişə belə əbədi yolda, belə əbədi səfərdə, yol yoldaşıdır" [7, s.468]. Tədqiqatçı Əmirxan Xəlilovun "...onun poetik yüksəlişində Borçalı yurdunun əvəzsiz rolu olmuşdur" [5, s.3] fikrində də məhz ənənə amili dayanır.

Zəlimxan Yaqubun ənənəyə bağlılığı küldən doğulan və yenidən alovlanan ocağa bənzəyir. Şair fərdi istedadı sayəsində ənənəvi formaları geniş ədəbiyyat yoluna çıxarmış, milli poeziyanı mövzu, sənətkarlıq, poetika baxımından zənginləşdirmişdir. Şairin bu poetik inkişaf yolunda dünyaya açılan qapı da əsas rol oynadı: Bütün Şərqi (Türkiyə, Ərəbistan, Çin, İran, İraq və s.) və Avropanı gəzən şair mənəvi söz xəzinəsində də Şərqlə Qərbi birləşdirdi. Bir millət olaraq xalqın bir əsrdə ikinci dəfə müstəqilliyini qazanması və demokratik dövlət qurmasının xoşbəxtliyini yaşayan şairin sözü də hərfi və məcazi mənada azadlığa çıxaraq bədii düşüncədə Şərqlə Qərbi birləşdirdi. Bu dövrdə şair ənənəyə bağlılığından daha çox, yeni poetik ənənə yaradaraq, özünün fəlsəfi düşüncələrini yaddaş dəftərinə köçürürdü. Şair özü bu barədə yazır: "Görüşlər, səfərlər, təəssüratlar qəlbimdə silinməz izlər buraxdı, yaddaşımda pozulmaz naxışlar yaratdı, şeirimin-şeiriyyətimin dünyasını genişləndirdi" [12, s.3-4]. Şairin bu ərəfədə yazdığı "Ziyarətdən-ziyarətə. Türkiyə dəftəri", "Ərəbistan dəftəri", "Çin dəftəri", "İran dəftəri", "İraq dəftəri", "Almaniya dəftəri" və s. silsilə şeirlərində yeni poetik kodlarla fəlsəfi ümumiləşdirmələr yoluyla yaddaşı təzələdi. "Qarsın düzündə", "İstanbulda quşlar qondu çiynimə", "İstanbullu qız", "Türk ocağında görüş", "Qocatəpə camesində", "Qoşa sətirlər", "Camlıca", "Memar Sinan", "Mövlana türbəsində", "Yunus İmrəyə", "Salam İstanbulum", "Sarp qapısı" və s. şeirləri forma, məzmun, bədii təsvir və ifadə vasitələri ilə yeni poetik mətnlər yaradaraq həm öz yaradıcılığında, həm də ümumən poeziyada yeni bir mərhələnin əsasını qoyur. "İstanbulda quşlar qondu çiynimə" şeirinin poetikasında təbiətlə cəmiyyətin harmoniyası yaradılır. Quşların çiyinə qonmasının nağıllarda simvolik mənası vardır. Şair də məhz buna işarə edərək xəyallarının poetik ifadəsini verir:

*İstanbulda quşlar qondu çiynimə,*
*Üz-gözümə sığal çəkdi lələklər.*
*Elə bildim xeyri-şəri yazmağa*
*Quş donunda göydən enib mələklər!*
*İstanbulda quşlar qondu çiynimə,*
*Səpələdim sevgini də, dəni də.*
*Nağıldakı şahlar düşdü yadıma,*
*Elə bildim şah seçillər məni də.* [12, s.15]

Zəlimxan Yaqubun digər silsilə şeirlərində də şairin poetik yaddaşında təzələnmələr baş verir, mövzu və mündəricə dəyişir. "Kərbala səfəri" şeirində Bakıdan Bağdada gedən karvan təsvir olunur. Tarixən bu cür karvanlar çox olmuşdur, lakin bu karvan müasir karvandır və 5 yüz il əvvəlki







kimi dəvəylə, qatırla, atla getməyə bənzəmir. Bu karvanda Kərbala və ondan heç də həyəcan doğurmayan Kərkük səfəri reallaşacaq. Kərkükdə şair qan qardaşları, Kərbalada isə böyük Füzuli ilə görüşəcəkdi: "Səhralar qoynunda su tapmayanda,//Füzuli şeirini içib gedirdik. // Körpülər Füzuli misralarıydı, // Zamandan-zamana keçib gedirdi" [12, s.63]. Burada hər şey şairə güc-qüvvət verir, "ürəyi gül tək açılır", "yollar ayağına güc verir", çünki burada şair üçün "o tərəf, bu tərəf" yox idi. Əgər burada şair Füzulini qürbətdə hiss edirdisə, indi başqa cür fikirləşir:

*Ucalar ucada, qiymətdə qaldı,*
*Görən gördüyünə heyrətdə qaldı.*
*Kim desə Füzuli qürbətdə qaldı*
*İnanma yalandı, yalan Kərbala!* [12, s.64].

Zəlimxan Yaqub yaradıcılığının yeni mərhələsində yalnız poetik coğrafiya genişlənmir, bu öz yerində, həm də yeni bir poetik yol, istiqamət cızılır. Bu mərhələdə şairin poetik dünyası mövzu və problematika baxımından yeniləşir və zənginləşir; ictimai fikrin poetik dərkinə yer verilir, milli poetik düşüncənin hüdudları genişlənir. Bu yeniliklər şairin yaradıcılıq üslubunu formalaşdırır və yeni bir mərhələyə daxil edir. Şairin "Peyğəmbər", "Mövlana", "İztirablı yollarla", "Sürgünlə söhbət", "İçimdə ağlayan Krım" və s. poemalarında ictimai siqlət, poetik ümumiləşdirmə, monumentallıq əsas olur, mənəvi saflığın tərənnümü, bədii təsvir orijinallığı baş verir. Şair ənənənin verdiyi varislik əlaqəsi və keçmişin estetik təcrübəsindən yararlanır, lakin bu kanonlardan asılı qalmır. Yenə Q.Quliyevə əsaslansaq deyə bilərik ki, novator səciyyəli ədəbi-bədii konsepsiyanın ənənəyə çevrilməsi prosesi iki istiqamətdə cərəyan edə bilər; ənənənin ədəbi prosesdə oxucular arasında yeni üfüqlər açması və tədricən daxili hərəkətdən, inkişafdan məhrum olub yeni-yeni cəhətlərini büruzə vermək qabiliyyətini itirdiyi zaman [8, s.152]. Məhz bu zaman, yəni ənənənin donaraq daşlaşdığı zaman yeni bir ənənənin novatorluq adı altında doğuşu başlayır ki, bunu da Z.Yaqub yaradıcılığında aydın şəkildə müşahidə etmək mümkündür.

**Nəticə / *Conclusion***

Zəlimxan Yaqub mövcud ənənənin əsiri olmaqdan çıxır, ancaq ona lazım olanı götürür, özünün poetik istedadı ilə yeni poetik mətnlər yaradır. Şair üçün keçmiş ədəbi ənənəni tam, bütöv, etalon və bölünməz hesab etmir, yalnız ondan köz almaqla yeni poetik mətnlər yaradır ki, bu mətnlər özü gələcək nəsillər üçün bir ədəbi-bədii nümunədir. Z.Yaqub bütün yaradıcılığı boyu əvvəldə qeyd etdiyimiz hər üç ənənə qolundan (folklor, klassik poeziya, çağdaş poeziya) sənətkarlıqla istifadə etmiş, lakin onların heç birinin təsiri altında olmamışdır.

**Ədəbiyyat / *References***


1. Abdullazadə, A. Şairlər və yollar. – Bakı: Elm, 1984. – 224 s.
2. Eliot, T. Ənənəvə fərdi istedad. "Ədəbiyyat qəzeti", 2020, 8 may. – s.12
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti (Tərtib edəni Ə.Mirəhmədov). – Bakı: Maarif, 1988. – 268 s.
4. Həsənov, H. Sazın və sözün vəhdətini yaradan şair // Zəlimxan Yaqub ədəbi düşüncədə, I c. – Bakı: Vətən, 2009. – s.87-91.
5. Xəlilov, Ə. Olimpə gedən yolda. "Yeni Azərbaycan", 2004, 15 may. – s.3.
6. Xəlilov, Q. Zəlimxan Yaquba açıq məktub. "Azərbaycan gəncləri", 1983, 17 mart.
7. Qarayev, Y. Son söz əvəzinə // Z.Yaqub. Bir əli torpaqda, bir əli haqda. – Bakı: Azərbaycan nəşriyyatı, 1997. – s.468-481.
8. Quliyev, Q. Ədəbi proses. – Bakı: Mütərcim, 2020. – 312 s.

9. Muğanna, İ. Zəlimxan Yaqubla xəyali söhbət və ya ucalıq sirri // Zəlimxan Yaqub ədəbi düşüncədə, I c. – Bakı: Vətən, 2009. – s.37-49.
10. Paşayev, Q. Zəlimxanın poeziya aləminə səyahət. "525-ci qəzet", 2015, 16 yanvar. – s.12.
11. Rüstəm, K. İnanc işığı. – Bakı: Şərq-Qərb, 2010. – 52 s.
12. Yaqub, Z. Bir əli torpaqda, bir əli haqda. – Bakı: Azərbaycan nəşriyyatı, 1997. – 488 s.
13. Yaqub, Z. Məni sabahıma qovuşdur, ana. – Bakı: Elm və təhsil, 2016. – 216 s.

## Единство традиции и новаторства в поэзии Залимхана Ягуба

**Айгюль Чобанова**
Диссертант
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: acobanova1974@gmail.com

**Резюме.** В статье исследуется проблема традиции и новаторства в поэзии Залимхана Ягуба. Отмечается, что традиции и новаторство всегда сопровождали друг друга, отражая в себе путь нового поэтического осмысления эволюции поэзии каждой эпохи. В поэзии XX века эти две тенденции также соблюдают в непрерывном процессе эту поэтическую традицию. Картина продолжения этой диалектической тенденции наблюдается и актуализируется в 60–70-х годах прошлого века, т.е. в начале творческого пути Залимхана Ягуба. В поэтическом творчестве Злимхана Ягуба раннего периода с помощью силы талантливой личности более всего выражались внешние проявления традиций и народного творчества. В этот период поэт более склонялся к народному поэтическому стилю, пытался сохранить его с помощью рифмованных средств художественного воплощения и описания. В последующий период своего творчества он склонен к суфийскому осмыслению Юнуса Эмре и мовланы Джалаледдина Руми. В этот период наряду с его поэтическим мышлением, обогащением языка происходит превращение поэта в выразителя духовного мышления народа, он сам становится создателем поэтической традиции. В большинстве стихов З.Ягуба использованы поэтические формы в стиле народной поэзии, парные строки в размере хеджа, герайлы, таджнисы. З.Ягуб пытается уйти от соответствующей традиции, используя только приемлемые его перу, и силой своего таланта создаёт новые поэтические образцы. В период всего своего творчества З.Ягуб с умением творчески пользовался тремя традиционными формами (фольклор, классическая поэзия, современная поэзия), не впадая под влияние какой-либо одной из них.
**Ключевые слова:** З.Ягуб, поэтическое творчество, традиция, новаторство, единство